# ZƏFƏRƏ APARAN YOL... VƏ BÖYÜK QƏLƏBƏ

Milyonlarla azərbaycanlının qəlbində, dilində dolaşan ülvi, müqəddəs arzusu nəhayət, reallığa çevrildi! Noyabrın 8-i səhər saatlarında Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan, İlham Əliyev Şəhidlər xiyabanından xalqa müraciət edərək, "Şuşa şəhəri işğaldan azad edildi!"- müjdəsi ilə bizi sevindirdi. Bu müjdə ürəklərdə pöhrə ümidləri, istəkləri dirçəltdi. Gözümüzü, könlümüzü şəfəqlərə boyadı. İndi Qarabağın ləli, incisi Şuşa şəhərinin başı üstündə üçrəngli bayrağımız dalğalanır!

Bu yerdə düşünürəm: Nə xoş ki, Azərbaycanın siyasi, diplomatik bacarığa, məharətə malik müdrik, uzaqgörən, fövqəl dövlət başçısı, yenilməz ordusu, cəngavər əsgəri, Vətən eşqi, təəssübü ilə ürəyi döyünən xalqı var! Belə bir gücün, dövlət-xalq-ordu birliyinin nəticəsidir ki, artıq Vətənimizin başı üstünü almış qatı duman çəkilir, zəfər yürüşünün yetirdiyi qələbə sorağından anaların üzü gülür, uşaqların çöhrəsində təbəssüm cilvələnir, beli bükülmüş insanların qəddi dikəlir. Belə bir möhtəşəmliyin sevincini, bəxtiyarlığını yaşamaq Tanrının bizə bəxş etdiyi ən böyük lütfüdür...

Məqaləyə giriş kimi başladığım bu duyğusal fikirləri 9 noyabr Bayraq günündən bir gün əvvəl Şuşanın işğaldan azad olunması şərəfinə yazmağa başlamışdım. Bu möhtəşəm zəfərin ardınca yenilməz ordumuzun böyük uğurları sırasında 72 kəndi işğaldan azad etməsi xəbəri tam qələbənin bir addımlığında olduğumuzdan soraq verirdi. Noyabrın 10-na keçən gecə Azərbaycanı ayağa qaldırmış xoş xəbər böyük ümidimizi reallığa çevirdi: Şuşa zəfərinin ardınca möhtəşəm Qələbə! Azərbaycan ordusu 44 günlük haqq savaşında düşmənə qalib gəldi!

Bu müqəddəs savaş başlayan gündən ürəyimə axan çisəkli duyğuların – ağrı, həyəcan, intizar və sevincin içində təzadlı bir həyat yaşayırdım. Məhz bu gün, Qələbə müjdəsini aldığım gecə, bu hisslərin yerini işıq seli doldurdu. Gecədən şəhərdə başlamış qələbəliyin möhtəşəm səsinə dəli bir sevinclə eyvana atıldım. Bütün şəhər oyaqdı! Vətən müharibəsi bitdi! Biz qalib gəldik! Özümdən ixtiyarsız aylı-ulduzlu çıraqban şəhərə səsləndim: Yaşasın Ali Baş Komandan! Yaşasın əsgərlərimiz!..

Televizoru açıram. İnsanlar əllərində üçrəngli bayrağımızla küçələrdə bayram əhval-ruhiyyəsi ilə şadlıq edir, ürəklərindən qopan alqışları şüar kimi səsləndirirlər: "Eşq olsun Ali Baş Komandanımıza!" "Eşq olsun ordumuza!". "Ən böyük əsgər bizim əsgər!" "Qarabağ!" "Şəhidlər ölməz, Vətən bölünməz!" "Yaşasın Azərbaycan əsgəri!.." Coşqu ilə müşayiət olunan Qələbə bayramının sevincli izdihamı bitib-tükənmir. Bu bəxtəvərliyin işığına, sevgisinə bələnmək böyük səadətdir. Nə xoş ki Uca Yaradan xalqımıza bu bəxtiyarlığı yaşamağı qismət elədi. Bütün Azərbaycan ailələri kimi mənim də ailəm sevinc gözyaşları içindədir...

Bir gözüm, televizorda qələbəliyi izləyir, bir gözüm də bilgisayarın monitorunda, barmaqlarım hərflərin üzərində hərəkətdədir. Böyük Qələbəmizin şadlığını yazıya almaq istədiyim rəngli, bəlağətli sözlər də düşüncəmdən barmaqlarıma axır. Televizorda tez-tez dəyişən kadrların arasında şadlığından yerə-göyə sığmayan gənclər əllərində üçrəngli bayrağımızla Şəhidlər xiyabanında görünürlər. Sanki, soyuq məzar daşlarına həkk olunmuş şəkillərindən boylanaraq, bu qələbəliyə sevinən şəhid oğullarımıza gözaydınlığı verirlər. Televiziyanın fədakar əməkdaşları bu qələbə yürüşünün içərisində yaşanan bayram əhval-ruhiyyəsi lakonik süjetlərlə təqdim edir, insanların sevgi-sevinc dolu ürək sözlərini xalqla bölüşüb-paylaşmağa imkan yaradırlar. Şəhərin prospekt və küçələrindən müqəddəs bayrağımızla bəzədilmiş maşınlar şütüyüb keçir. İnsanlar qaranlığı boğazlayan sübhün alatoranında hay-küylə, coşquyla, gülüşlə, sevinc gözyaşları içərisində birliyimizi nümayiş etdirirlər. Yollarda, səkilərdə sanki insan seli axıb gedir, hamı, hər kəs də al şəfəqli səhərin qoynunda cilvələnən Vətənin bəxtəvər hüsnünü görmək, "Gözün aydın, Azərbaycan" deyə, səslənmək intizarındadır...

Bölgələrimizdə yaşanan Qələbə bayramı da bir başqa aləmdir. Bu izdihamın içərisində əsgər analarını, bacılarını görmək də qürurvericidir. İnanıram ki, öz qanları bahasına doğmalarının, bütünlükdə Vətənin başını uca edən şəhidlərimizin ruhu da bu qələbəliyin başı üstündə dolaşır. Azərbaycan xalqı böyük, müdrik xalqdır. O, kədərini də, sevincini də mükəmməl qarşılayır... Prezidentin ikinci Stalinqrad adlandırdığı Tərtər, Bərdə, Gəncə, Mingəçevirdə və digər rayonlarda sakinlərin haylı-küylü izdihamının içərisindən ucalan ürək sözləri, Ali Baş Komandana, əsgərlərimizə alqışları da qələbə sevincimizə rövnəq verir...



* * *

Jurnalistikada yaradıcılığım boyu həmişə çalışmışam ki, mövzunu işləyərkən fikrimi dəqiq, tutarlı və kəsərli ifadə etmək üçün sözün ən təsirlisini, qüdrətlisini (bəzən də qanadlı, rəngli ifadələri) yazıya gətirim. İndiki məqamda da bu möhtəşəmliyi, gözəlliyi, fərəhi təsvirə gətirən sözlər düşüncəmdən yağış kimi süzülür. Bu isti, cazibədar sözlərin heç birini kənarda qoymağa ürəyim gəlməsə də məqamında doğulan kəlmələrə üstünlük verirəm... Bu günlər hamının ürəyindən, dilindən süzülən fərəhli sözlər quş təki aləmə pərvazlanır: Həsrətin sonu bitdi! Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu! İşğalda olan Vətən torpaqları düşmən tapdağından azad oldu! Biz Qələbə çaldıq!

44 gün davam edən müharibənin hər günü Azərbaycan əsgərinin mübarizliyi, qəhrəmanlığı ilə qürurvericidir. Qan-qada, dağıntılar içində keçən bu Vətən savaşında ordumuzun əsgərləri Ali Baş komandanın rəhbərliyi altında ağır, həm də şərəfli döyüşlərdə böyük uğurlara imza atdılar. Azərbaycan xalqı bəlkə də son iki əsrdə belə bir qələbə sevinci yaşamamış, xoşbəxtliyə qovuşmamışdır. Bəli, 30 illik ağrı-acılara, vətənin içərisində yaşanan qaçqınlığa, məcburi köçkünlüyə böyük zəfərlə son qoyuldu. Dünya bu haqq savaşında qazandığımız böyük Qələbənin şahidi oldu.

Bu qələbəni doğuran əsas amillər, ilk növbədə dövlət, xalq ordu birliyi, müharibənin bir mərkəzdən, Ali Baş Komandan tərəfindən idarə olunması, əsgərlərimizin böyük döyüş qabiliyyəti – igidliyi, cəsurluğu, qorxmazlığı, vətənə sədaqəti və babalarımızdan miras qalan digər keyfiyyətlərə malik olmasıdır. Düşmən bu hazırlığın, vətənsevərliyin qarşısında tab gətirə bilmədi, döyüş meydanında məğlub olduğunun acığına müharibə zonasından uzaq olan şəhər və kəndlərimizi ballistik və kasetli raketlərlə vursa da, mülki əhaliyə atəş açsa da, xeyli dağıntılar yaratsa da əzmimizi, iradəmizi qıra bilmədi. Əksinə, əsgərlərimiz döyüş meydanında düşmənə sarsıdıcı zərbələr endirməklə onların layiqli cavabını verdi. Haqqın qolu güclü olur. Bu mənada ordumuz öz gücünü ermənilərə göstərə bildi. Dünya erməni tapdağı altında olan torpaqlarımızı öz gücümüzlə işğaldan azad etdiyimizi görür, zəfər yürüşlərimizi izləyir, uğurlarımıza şahid olurdu. Beləliklə, biz qələbənin astanasında idik. Prezidentimizin təbirincə desək, düşmən bizim qarşımızda diz çökmüşdü. Qələbəmiz labüd idi...

10 noyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin 9 bənddən ibarət imzaladıqları Bəyanat Qələbəmizin tam başa çatdığının təsdiqi oldu. Bundan sonra dövlət başçımız, Ali Baş Komandan xalqa müraciət etdi. Həmin gecə bütün Azərbaycan, eləcə də dünya bu Bəyanatı eşitdi. O gecə Prezident, Ali Baş Komandan İlham Əliyev, qalib Sərkərdə böyük sevinclə xalqımıza qələbə müjdəsi verdi. Xalq müraciəti dinləyərkən Ali Baş Komandanın 44 gün davam edən müharibədə ağır və şərəfli missiyanı yerinə yetirərək qələbə ilə başa çatdırdığından böyük qürur və rahtlıq hissi yaşadığının da fərqində idi.

Sözümüzün bu məqamında Prezidentin parlaq qələbəmizin möhtəşəm ifadəsi olan müraciətinə də münasibət bildirməyi vacib sanırıq. Bu müraciətdə biz Prezident İlham Əliyevi dövlətimizin başçısı, Ali Baş Komandan, qüdrətli Sərkərdə, Vətən və xalq təəssübkeşi, qanı-canı ilə yurduna, torpağına bağlı olan xalis Azərbaycan oğlunu, əzmkar Dühanı sanki projektorun gur işığında yenidən kəşf etdik. Bu çıxışında Ali Baş Komandan xalqına 30 ilə yaxın bir dövrdə yaşadığımız ağrıları, qaçqın və məcburi köçkünlərin həsrətini, nisgilini önə çəkərək onların yurdlarına dönməsindən ötrü nə qədər görüşlər, danışıqlar apardığını, bunların heç bir nəticə vermədiyindən bu müharibənin labüdlüyünü diqqətə aldığını açıqladı. Müharibədə əsgər və zabitlərimizin böyük qəhrəmanlıqla döyüşdüyünü, az bir müddətdə məhz onların igidliyi sayəsində parlaq qələbəmizin qazanıldığını bəyan etdi. Bu Qələbə müjdəsinin işığında yaşanılan bütün hadisələrə çox istiqamətdən, həm də reallıq prizmasından mövqeyini açıqladı. Bu haqq savaşında nələr etdik, hansı haqsızlıqlarla üzləşdik, itkilərin, dağıntıların qarşısında xalqımızın dözümünü, dəyanətini, böyük iradə nümayiş etdirdiyini dilə gətirdi.

Ali Baş Komandanın müharibənin ilk günündə xalqa müraciətini, müharibə ilə bağlı ilk yazımda ("Azərbaycan əsgərinin Vətən savaşı". "Respublika" qəzeti, 8 oktyabr) qeyd etdiyim kimi, hüquqi sənəd statusunda gördüm. Eləcə də Qələbə müjdəsinin işığında etdiyi müraciətin də həmin statusda olduğunu dərk etdim. Bu müraciətlərdə diqqətə çatdırılan və açıqlanan məsələlər haqqımızı, hüququmuzu bəyan etməklə bütünlükdə milli, bəşəri dəyərlərə söykənir. Bu fikirlərin hər birinə bu gün də, gələcəkdə də tarixçilərin, tədqiqatçıların diqqət yetirəcəyi, bir mənbə kimi söykənəcəyi mütləqdir.

Prezidentin qeyd etdiyi kimi, bu Bəyanatın böyük tarixi əhəmiyyəti var. Azərbaycanın yeni tarixinin səhifəsində şərəfli yer tutan bu sənəd böyük Qələbəmizin təsdiqi kimi təqdir olunacaq. İlham Əliyev xalqımıza bu sənədin xüsusi önəm kəsb etdiyini diqqətə çatdıraraq qeyd etdi ki, Azərbaycan xalqı bu sənədə böyük diqqət göstərərək onu dəqiq, böyük diqqətlə oxuyacaq və görəcək ki, biz nə qədər böyük siyasi qələbə qazanmışıq. Bu siyasi qələbənin qazanılmasında hərbi qələbəmiz müstəsna rol oynayır. Müraciətdə Türkiyənin mövqeyi də önə çəkilir. Ali Baş Komandanın reallıqdan doğan bu fikrinin ardınca Türkiyə dövlətininin bundan sonra da rəsmi qaydada Azərbaycanın taleyində həlledici roluna diqqət yönəldir: Mən əziz xalqımı sənədin mətni ilə tanış etdim. Burada yeni nəzarət mexanizmi tətbiq edilir. Bəyanatın beşinci bəndində yazılıb: "Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır". Mən deyə bilərəm ki, bu mərkəzdə Rusiya və Türkiyə hərbçiləri fəaliyyət göstərəcək. Beləliklə, Türkiyə rəsmi qaydada bu münaqişənin gələcək həlli və atəşkəsə nəzarət etmək işində rol oynayacaqdır.

Prezident qardaşın qardaşa siyasi və mənəvi dəstəsiyini bütün çıxışlarında, xarici telekanallara, KİV-lərə verdiyi müsahibələrində dönə-dönə vurğuladığı kimi, bu müraciətində də adı çəkilən Bəyanatın əhəmiyyətindən bəhs edərkən Türkiyə dövlətinin mövqeyini bir başqa prizmadan müstəviyə gətirir: Mən videokonfrans formatında imzalama mərasimindəki çıxışımda həm Türkiyə Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın, həm Rusiya Prezidenti Vladimir Putinın səylərini yüksək qiymətləndirdim. Çünki onlar doğrudan da bu 44-45 gün ərzində böyük səylər göstərmişlər ki, məsələ sülh yolu ilə həll olunsun. Eyni zamanda, mən çox şadam ki, artıq münaqişənin dayandırılmasında bu iki lider öz müsbət rolunu oynayıb. Hesab edirəm ki, bu, eyni zamanda, bölgədə gələcək əməkdaşlıq formatını da böyük dərəcədə müəyyən edir. Çünki Türkiyə ilə Rusiya arasındakı əlaqələr bu gün tarixə baxsaq, hesab edirəm ki, ən yüksək səviyyədədir. Hər iki ölkə bizim üçün dost, qonşu ölkədir. Beləliklə, hesab edirəm ki, gələcəkdə bu əməkdaşlıq formatı daha da çoxşaxəli ola bilər.

*(Davamı var)*



***Şəfəq NASİR,***
***yazıçı-publisist.***